AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**AZƏR YUSİF oğlu TOPÇUYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATINDA ÖZƏL SEKTORUN FORMALAŞMASI VƏ İNKİŞAFI TARİXİNDƏN (1991-2013)

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Gəncə Dövlət Universitetinın "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **İ.X.ZEYNALOV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Ə.İ.MUXTAROVA**
Tarix üzrə fəlsəfə doktoru, dosent **R.Ə.RZAYEV**

**Aparıcı müəssisə:** Sumqayıt Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "__" _______2017-ci il tarixli iclasında, saat __00-da keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"_________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 80-ci illərinin ikinci yarısında dünyanın siyasi və iqtisadi münasibətlərində radikal sağ təmayüllü meyillər özünü göstərməyə başladı. Nəticədə dünyanın aparıcı dövlətlərində sağ mühafizəkar qüvvələr hakimiyyətə gəldilər. Bu hal SSRİ kimi fövqəl bir dövlətə təsirsiz qalmadı. XX əsrin 70-ci illərindən iqtisadiyyatı durğunluq vəziyyəti keçirən, iki sistemin mübarizəsi şəraitinə uyğunlaşmağı bacarmayan, ən başlıcası, insan psixologiyasının zorlanmasını nəzərdə tutan sosializm sistemində xarici amillərin təhdidli təsiri nəticəsində 80-ci illərin ikinci yarısında dərin böhran başlandı. Xüsusilə, SSRİ-də bu hadisələr daha qabarıq üzə çıxdı. Böhrana əsas səbəb rəvan işləməsi üçün qüdrətli rəhbər tələb edən sosialist cəmiyyətinin uzun müddət, xüsusən 70-ci illərin ortalarından onu idarə edə biləcək, xüsusi keyfiyyətlərə sahib liderə malik olmaması idi. 80-ci illərin sonunda milli münasibətlər qəlizləşdi, milli respublikalarda, o cümlədən Azərbaycanda milli-azadlıq hərəkatı geniş vüsət aldı. SSRİ-də 1985-ci ilin martında M.S.Qorbaçovun hakimiyyətə gəlməsi, onun taktiki səhvləri, ölkənin hələ hazır olmadığı islahatlara başlaması səbəbindən onların uğursuzluğu, "aşkarlıq"ın yaratdığı xaos idarəçiliyin siyasi motivlərinin süqutuna gətirib çıxartdı[1]. Bu isə 1991-ci il dekabrın 8-də SSRİ-nin süqutuna səbəb oldu[2]. SSRİ-nin süqutu onun tərkibinə daxil olan milli respublikaların, o cümlədən Azərbaycanın elan olunmuş müstəqilliyinin möhkəmlənməsinə şərait yaratdı.

1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktı[3] qəbul edildi. Həmin il dekabrın 29-da keçirilən referendumdan sonra Azərbaycan siyasi cəhətdən tam müstəqil dövlət oldu[4]. Ölkədə siyasi və iqtisadi sistemin dəyişilməsi zərurəti yarandı. Xüsusilə, iqtisadi sahədə ölkə ciddi problemlərlə üz-üzə idi. Keçmiş SSRİ-nin xalq təsərrüfatı, hər halda bir-biri ilə üzvi surətdə bağlı olan orqanizmi xatırladırdı. Burada birinin iştirakı olmadan digərinin fəaliyyəti mümkün deyildi. SSRİ-nin süqutu ucbatından iqtisadi əlaqələrin pozulması iqtisadiyyatın iflic vəziyyətə düşməsinə səbəb oldu. Digər respublikalardan fərqli

---

[1] Azərbaycan tarixi. Yeddi clddə. VII c. (1941-2002-ci illər). Bakı: Elm, 2008, s.229

[2] Hüseynov Ş. İttifaq dövlətinin fatihəsi verildi. "Azərbaycan" qəz., Bakı, 1991, 12 dekabr

[3] ARMMA, f. 2941, s. 1, i. 264, v. 37

[4] Azərbaycanın istiqlaliyyətinə səs vermişlər. "Xalq qəzeti", Bakı, 1992, 8 yanvar

olaraq Dağlıq Qarabağ hadisələri, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə elan edilməmiş müharibəyə başlaması, o zamankı Respublika rəhbərliyinin səriştəsizliyi üzündən ölkədə yaranan anarxiya, silahlı qruplaşmalar, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi iqtisadi böhrandan çıxış yolları tapmaq imkanlarını daha da məhdudlaşdırırdı.

Müstəqilliyin birinci mərhələsində (1991-1993-cü illər) Respublika iqtisadiyyatının bazar münasibətlərinə uyğunlaşmasına, bazar iqtisadiyyatının qanunvericilik bazasının yaradılması və formalaşmasına, insanlarda sahiblik, işgüzarlıq hissinin oyanmasına, mülkiyyətçilərin demokratiyasının təmin edilməsinə, iqtisadiyyatın canı olan sahibkarlıq və şəxsi təşəbbüsün canlanmasına ciddi ehtiyac hiss olunurdu. Azərbaycanın o vaxta qədər keçmiş SSRİ-də xammal respublikası kimi tanınması, son məhsul istehsal etmədiyinə görə hər il orta hesabla 10 milyon dollara (o zaman bu əhəmiyyətli məbləğ idi) qədər gəlirdən məhrum olması da vəziyyəti mürəkkəbləşdirən amillərdən hesab edilməli idi. Bazar münasibətləri sahəsində müsbət dünya təcrübəsindən də istifadə etmək vacib idi. Vəsait çatışmazlığı da mühüm amillərdən idi. Ölkədə vəsait çatışmır, xarici dövlətlər siyasi sabitlik olmadığı üçün bizə inanmır, kredit vermək və sərmayə qoymaq istəmirdilər. 1994-cü ilə kimi Azərbaycana xarici investisiya qoyulmamışdı[1].

Respublikada ixtisaslı kadrların yeni qanunvericilik əsaslarını hazırlamaq təcrübəsinin, demək olar ki, yoxluğu, onlara yol göstərəcək uzaqgörən və səriştəli rəhbərin olmaması da hər an hiss edilməkdə idi. Doğrudur, 1990-1992-ci illərdə A.Mütəllibovun və 1992-1993-cü illərdə AXC hakimiyyətləri dövründə yeni formalaşmağa başlayan iqtisadi münasibətlərin stimullaşdırıcı amillərini və hüquqi bazasını yaratmaq istiqamətində bir sıra cüzi cəhdlər edilsə də, heç bir nəticə verməmişdi.

Hakimiyyətdə müdrikliyinə, dövlətçilik təcrübəsinə, idarəçilik məharətinə malik olan bir dühaya kəskin ehtiyac hiss olunurdu. Ölkədəki iqtisadi böhrandan doğan maliyyə böhranı, inflyasiya, işsizlik də tezliklə ciddi tədbirlər görülməsini, bazar iqtisadiyyatına keçməyi, iqtisadi islahatların hüquqi, qanunvericilik bazasının hazırlanmasını və onun həyata keçirilməsinin sürətləndirilməsini tələb edirdi.

1993-cü ilin 15 iyununda məhz Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra, tədricən bazar münasibətlərinin qanunvericilik bazasının yaradılmasına, iqtisadi islahatlara başlanılmasına start verilməklə nəticədə, artıq 1997-ci ildə maliyyə-iqtisadi böhranın qarşısı alındı, iqtisadiyyatda artım müşahidə edilməyə başlanıldı. 1995-

[1] Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, s. 312

ci ildən başlanan iqtisadiyyatın artım sürəti XXI əsrin ilk illərində də davam etdi və respublikamız bu baxımdan Dünya dövlətlərinin çoxunu ötüb keçdi. Yeni istehsal münasibətləri bazasında xüsusi mülkiyyət və sahibkarlığa əsaslanan istehsal və idarəçilik münasibətləri formalaşmağa başladı. Ölkə iqtisadiyyatının idarə olunmasının ilkin normativ hüquqi bazası yaradılmış oldu.

İslahatların keçirilməsində məqsəd güclü mərkəzlə yanaşı regionlarda iqtisadi inkişafa nail olmaq idi. Çünki iqtisadi rayonlarda və inzibati ərazi vahidlərində regional inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi ölkədə tarazlı inkişafın, əhalinin məşğulluğunun və həyat səviyyəsinin yüksəldilməsinin başlanğıcı idi. Regional inkişaf üzrə proqramların dövlət səviyyəsində hazırlanması və tətbiqi həm də ölkənin maliyyə, təbii və əmək potensialını səfərbər etməklə regionların kompleks sosial-iqtisadi inkişafının və sosial sahənin təmin edilməsinin mühüm vasitəsi idi.

Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycanda, aqrar sahədə əsas problem regionlar arasında, xüsusilə də Bakı şəhəri ilə kənd rayonları arasında, onların istehsal imkanları məsələsində kəskin disproporsiyanın olmasında idi. Bu fərqin aradan qaldırılması üçün XX əsrin 90-cı illərinin II yarısı - XXI əsrin əvvəllərində Azərbaycanda regionların sosial-iqtisadi inkişafı yolunda atılan addımların möhkəm təməli qoyulmuşdu. Bu sahədə xüsusilə Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının 2004-2008 və 14 aprel 2009-cu il tarixdə imzaladığı 2009-2013-cü illəri əhatə edən Dövlət Proqramları"nın[1] xüsusi əhəmiyyəti olmuşdur. Bu proqramların yerinə yetirilməsi gedişində bu istiqamətdə bir sıra müsbət nəticələr əldə edilmiş, ölkə iqtisadiyyatı və onun idarə edilməsi prinsipcə öz inkişafının yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələdə əsas vəzifə qeyri-neft sektorunun inkişafının prioritet xarakter daşımasından, infrastruktur sahələrinin inkişafından, yeni regional inkişaf proqramlarının hazırlanması və yerinə yetirilməsindən ibarətdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra keçid dövründə bazar iqtisadiyyatına keçid şəraitində aqrar islahatların qanunvericilik bazasının

[1] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında fərman. "Azərbaycan" qəz., Bakı, 2004, 12 fevral; "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman. "Xalq qəzeti", Bakı, 2009, 16 aprel

yaradılması, bu sahədə sahibkarlığın formalaşması və regionların sürətli inkişafı strategiyasının elmi-nəzəri cəhətdən araşdırılması, mövcud problemlər və onların həlli yollarının nəzəri konseptual baxımdan tədqiqi, görülmüş tədbirlərin və onların nəticələrinin ümumiləşdirilməsi və obyektiv qiymətləndirilməsi mühüm elmi və praktik əhəmiyyət kəsb etməklə tədqiqat predmeti kimi seçilmiş mövzunun aktuallığını şərtləndirir. Sözü gedən problem iqtisadi baxımdan tədqiq edilsə də Azərbaycan tarixşünaslığında xüsusi tədqiqat obyekti kimi indiyədək öyrənilməmişdir. Problemə kompleks halında yanaşılmamış, bu məsələ birbaşa araşdırmalar predmeti olmamışdır. Planetdə inteqrasiya proseslərinin gücləndiyi, enerji mənbələrinin böyük əhəmiyyət kəsb etməsi də bu problemin tədqiqinin aktuallığını şərtləndirən məsələlərdəndir. Bu mövzunun tədqiqi təkcə tənəzzül, durğunluq və inkişaf meyillərinin aşkarlanması məqsədinə xidmət etmir, habelə bu prosesləri səbəbləndirən amillərin ortaya çıxarılmasını, tərəqqi və problemli məqamların stimullaşdırılması və ya aradan qaldırılmasını şərtləndirəcək konkret tövsiyə və təkliflərin irəli sürülməsi ilə xarakterizə olunur. Ümumiyyətlə bu mövzunun tədqiqi Azərbaycan tarixşünaslığına yeni nöqteyi-nəzərin formalaşmasını təsbit etmək baxımından da bir töhfə kimi əhəmiyyətlidir.

**Problemin öyrənilmə dərəcəsi.** Tədqiqat obyekti kimi araşdırdığımız "Azərbaycan Respublikasının kənd təsərrüfatında özəl sektorun formalaşması və inkişafı tarixindən (1991-2013)" problemi öyrənilərkən ilk növbədə bu sahədə dünya təcrübəsindən istifadə edilməyə çalışılmışdır.

Azərbaycan alimlərindən A.A.Nadirovun "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri" [1] əsəri aqrar sahənin iqtisadiyyatına və özəlləşdirilməsinə həsr edilmişdir. Lakin bu əsərdə aqrar islahatlar, regional inkişaf strategiyası və aqrar sahibkarlığın meydana gəlməsi və inkişafı prosesi xüsusi tədqiqat obyekti kimi öyrənilməmişdir.

Bu problemə həm tarix, həm də iqtisadi elmlərdə, təbii olaraq, xüsusi diqqət ayrılmışdır. Kənd təsərrüfatında özəl sektorun formalaşması və inkişafı məsələsi bir qayda olaraq iki kontekstdə - tarix və iqtisadi kontekstlərdə tədqiq edilmişdir.

Problemin müəyyən tərəflərini tarixi baxımdan araşdıran tarixçilərdən İ.X.Zeynalovun əsərlərində zəngin faktiki materiallar əsasında XX əsrin 90-cı illərindən başlayaraq XXI əsrin əvvəllərinədək ölkədə keçirilən

[1] Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001, 452 s.

aqrar islahatlar siyasi hadisələrlə əlaqə fonunda dərindən təhlil edilmişdir. [1] Modemləşdirmə strategiyasının ayrı-ayrı məsələləri, həmçinin islahatların keçirilməsində dövlətin rolu akademik R.Mehdiyevin 2001-ci ildə nəşr olunmuş “Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi” [2] əsərində öz geniş əksini tapmışdır. O, islahatlar tarixini səciyyələndirərək onu dörd mərhələyə bölür: l) XX əsrin 70-80-ci illəri; 2) 80-ci illərin ikinci yarısı; 3) 1991-1993-cü illər və 4) 1993-cü ildən sonra. R.Mehdiyev 2003-cü ildə çap etdirdiyi “XXI əsrdə milli dövlətçilik”[3] əsərində göstərirdi ki, məhz sonuncu mərhələdə Azərbaycan dövlətçiliyi özünün yenidən formalaşması mərhələsinə qədəm qoymuşdur.

Qloballaşma problemini və dünya birliyinin subyekti kimi Azərbaycanın milli maraqlarının nəzərə alınması, ölkənin iqtisadi siyasətdə müstəqilliyini saxlaması, iqtisadiyyatın idarə edilməsində dövlətin rolunun artırılması, sahibkarlığın formalaşmasının dövlətin strateji məsələsi olması və digər məsələlər iqtisadçı alim, akademik Z.Səmədzadənin “Azərbaycan XXI əsrin astanasında” mövzusunda elmi-praktik konfransdakı “Çin iqtisadi möcüzəsi” [4] adlı məruzəsində çox dəqiq işıqlandırılmışdır.

İqtisadçı alim S.Səfərovun 2003-cü ildə çap edilmiş “Yeni Azərbay-

---

[1] Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı: BDU nəşriyyatı, 1996, 314 s.; yenə onun. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı: Azərnəşr, 2004, 326 s.; yenə onun. Azərbaycanın iqtisadi inkişafı müstəqillik dövründə. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, Bakı, 2004, №1, s. 166-170; yenə onun. Azərbaycanın sosial-iqtisadi inkişafında dövlət proqramı. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, Bakı, 2005, №4, s. 150-157; yenə onun. Azərbaycanda aqrar bölmənin inkişafında neft amilinin rolu. Tarix və onun problemləri. Bakı, 2007, №2, s. 133-140; yenə onun. Müasir iqtisadiyyat və əhali problemi. Tarix və onun problemləri. Bakı, 2007, №3, s. 14-20; yenə onun. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Tarix və onun problemləri. Bakı, 2008, №1-2, s. 230-236; yenə onun. Azərbaycan Respublikası Prezidenti İ.Əliyev və regionların sosial- iqtisadi inkişafı (2003-2008-ci illər). Tarix və onun problemləri. Bakı, 2009, №1-2, s. 107-114; yenə onun. Azərbaycan Respublikasının inkişafı (2003-2011-ci illərdə). Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, Bakı,2012, №2, s. 47-58.

[2] Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı: Azərbaycan Milli Ensiklopediyası , 2001, 276 s.

[3] Yenə onun. XXI əsrdə milli dövlətçilik. Bakı: XXI- Yeni Nəşrlər Evi, 2003, 248 s.

[4] Səmədzadə Z. Çin iqtisadi möcüzəsi. “Azərbaycan XXI əsrin astanasında” mövzusunda elmi-praktik konfransının materialları. Bakı, 1997, s. 543

can”[1] adlı əsərində ölkənin modernləşdirilməsi yolundakı dinamik inkişafı əks etdirilmişdir. İqtisadçıların əksəriyyəti keçid dövrünün islahatlarını, regionların sosial-iqtisadi inkişafının strategiyası problemlərini təhlil edərək onu xalq təsərrüfatının özəlləşdirilməsi, neft sənayesinin dövlətin prioritet məsələsi kimi ortaya çıxması, maliyyə islahatlarının keçirilməsi ilə əlaqələndirirlər. Ə.Abbasov və İ.Əsgərovun 2001-ci ildə çap edilmiş “Keçid dövrü və yeni iqtisadi təfəkkür”[2], İ.N.Əliyevin 1997-ci ildə çap edilmiş “Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı”[3], A.K.Ələsgərovun 1998-ci ildə çap edilmiş “Azərbaycanda iqtisadi islahatlar və sosial-iqtisadi irəliləmələr”[4], A.Verdiyevin 1999-cu ildə çap edilmiş “Azərbaycan Respublikasında aqrar islahatlar”[5], T.A.Quliyevin 1999-cu ildə çap edilmiş “Tənzimlənən bazar iqtisadiyyatı”[6], R.Muradovun 2002-ci ildə çap edilmiş “Bazarın transformasiyası və məşğulluq”[7], A.Ş.Şəkərəliyevin 2002-ci ildə çap edilmiş “Bazar iqtisadiyyatı və dövlət”[8], Ə.Nağıyev, V.Novruzov, H.Allahverdiyev və Ə.Əlirzayevin 1998-ci ildə birgə çap etdirdikləri “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı”[9] əsərləri bu baxımdan çox əhəmiyyətlidir. İqtisadçıların fikrincə, inzibati-bürokratik sistem iqtisadiyyatın inkişafına əngəl törətmişdir. Onların fikrincə, keçid dövründə iqtisadiyyatın idarə edilməsi məsələsi ən mühüm məsələ olmuşdur.

Bazar iqtisadiyyatına keçid strategiyasını tədqiq edərkən yeni istiqamət və mənbələrə R.Həsənovun əsərlərində daha çox rast gəlinir. O, 2000-ci ildə çap edilmiş “Xalq təsərrüfatı islahatlarının xüsusiyyətləri və

---

[1] Səfərov S. Yeni Azərbaycan. Bakı: Azərnəşr, 2003, 290 s.

[2] Abbasov Ə., Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür (sosial-fəlsəfi təhlil). Bakı: Nafta-Press, 2001, 142 s.

[3] Əliyev İ.N. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərnəşr, 1997, 152 s.

[4] Ələsgərov A.K. Azərbaycanda iqtisadi islahatlar və sosial-iqtisadi irəliləmələr. Bakı: Azərnəşr, 1998, 217 s.

[5] Verdiyev A. Azərbaycan Respublikasında aqrar islahatlar. Bakı: Elm,1999, 184 s.

[6] Quliyev T.A. Tənzimlənən bazar iqtisadiyyatı. Bakı: Elm, 1999. 183 s.

[7] Muradov R. Bazarın transformasiyası və məşğulluq. Bakı: Azərnəşr, 2002, 254 s.

[8] Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatı və dövlət. Bakı: İqtisad Universiteti, 2002, 440 s.

[9] Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1998, 388 s.

Azərbaycanın perspektiv iqtisadi modeli" əsəri[1]ndə iqtisadi islahatları keyfiyyət və zaman baxımından şərti olaraq üç dövrə bölmüşdür: 1)1990-1993-cü illər; 2) 1993-1996-cı illər və 3)1997-1999-cu illər. 2003-cü ildə nəşr olunmuş "Azərbaycan iqtisadiyyatının 1992-2002-ci illərdə inkişaf strategiyası" adlı əsəri[2]ndə isə götürülmüş xronoloji çərçivə daxilindəki iqtisadi inkişafdan danışılır.

2005-ci ildə Bakıda nəşr edilmiş "Regionların iqtisadi inkişafı"[3] adlı kitabda ayrı-ayrı regionlar üzrə 2005-ci ilə qədər iqtisadi inkişafdan söhbət getsə də, götürdüyümüz problem yenə də hərtərəfli təhlil edilməmişdir. Lakin burada da biz dərin tarixi təhlilə rast gəlmirik. 2006-cı ildə çap edilmiş "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı"[4] adlı kitabda 2003-2005-ci illərdə bu sahədə dövlətin həyata keçirdiyi siyasət öz əksini tapmışdır. Lakin bu da bizim tədqiq etdiyimiz problemin qısa bir dövrünü, çox lazımlı lakin bütün problemi əhatə etməyən məsələləri əks etdirir. 2009-cu ildə nəşr olunmuş "Regional inkişafın beş ili - Uğurlu siyasət"[5] əsərində də 2004-2009-cu illərdə Azərbaycanın regionlarında Dövlət Proqramının qəbulundan sonra həyata keçirilən tədbirlər, uğurlu siyasətin nəticələri əks olunsa da, bu da araşdırılan problemi əks etdirməmişdir. Dissertasiya üzərində işləyən zaman bu əsərlərdən istifadə etmək məqsədəuyğun olsa da, tədqiq olunan dövr tarixi baxımdan xronoloji ardıcıllıqla təhlil edilməmişdir. Dissertasiyada biz bu məsələlərə kompleks halında tarixi təhlil verməyə çalışmışıq.

Problemin tədqiq edilməsində İ.M.Hüseynovanın əsərləri də mühüm əhəmiyyət kəsb edir. Onun 2004-cü ildə çap edilmiş "Müstəqil Azərbaycan dövlətinin qurucusu"[6] adlı monoqrafiyası Ümummilli lider Heydər Əliyevin fəaliyyətinə həsr edilmişdir. Əsərdə müəllif hələ 1970-1980-ci illərdə Azərbaycanın sürətli inkişafı ilə gələcək müstəqil Azərbaycan Respublikasının möhkəm təməlinin qoyulmasından, onun Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından, Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğundan, neft strategiyasının həyata keçi-

---

[1] Həsənov R. Xalq təsərrüfatı islahatlarının xüsusiyyətləri və Azərbaycanın perspektiv iqtisadi modeli. Bakı: Azərnəşr, 2000, 265 s.
[2] Yenə onun. Azərbaycan iqtisadiyyatının 1992-2002-ci illərdə inkişaf strategiyası. Bakı: Azərnəşr, 2003, 206 s.
[3] Həsənov R. Regionların iqtisadi inkişafı. Bakı: Azərnəşr, 2005, 237 s.
[4] Yenə onun. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı. Bakı: Azərnəşr, 2006, 223 s.
[5] Yenə onun. Regional inkişafın beş ili - Uğurlu siyasət. Bakı: Azərnəşr, 2009, 189 s.
[6] Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.

rilməsi ilə Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının dərinləşməsindən və ümumiyyətlə Heydər Əliyevin fəaliyyətinin bütün sahələrindən bəhs edilir. Monoqrafiyanın müstəqil Azərbaycanda sosial-iqtisadi siyasət və iqtisadi islahatların həyata keçirilməsinə həsr olunan VII fəsli bilavasitə tədqiqat mövzumuzla bağlıdır. İqtisadi islahatların həyata keçirilməsində yeni mülkiyyət formalarının, münasibətlərinin yaranması, dövlət mülkiyyətinin özəlləşdirilməsi monoqrafiyanın əsas ana xəttini təşkil edir. Müəllif göstərir ki, iqtisadiyyatın tənzimlənməsi, iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi vacib məsələlərdən biridir. Ümummilli lider Heydər Əliyev xarici ölkələrlə, xarici şirkətlərlə qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişaf etdirilməsinə, xarici sərmayənin Azərbaycana gəlməsinə geniş şərait yaradılmasını mühüm vəzifə kimi qarşıya qoyurdu. Həmçinin əsərdə göstərilir ki, aqrar bölmə iqtisadiyyatı dirçəltməkdə, xalqın maddi vəziyyətini yaxşılaşdırmaqda əsas rol oynadığından onun inkişafında, Azərbaycanın hər bir bölgəsinin imkanlarını aşkar etmək bir vəzifə kimi qarşıya qoyulurdu. İqtisadi yüksəlişdə Azərbaycana qoyulan investisiyaların artmasının mühüm rolunu vurğulayan müəllif əsərdə həmçinin son illər respublikada ardıcıl həyata keçirilən islahatların iqtisadiyyatın inkişafını, makroiqtisadi göstəricilərin davamlı artımını, əhalinin rifahının yaxşılaşdırılmasını təmin etdiyini əsaslandırır. İradə Hüseynova xronoloji baxımdan ancaq 2002-ci ilə qədər keçirilən iqtisadi islahatları təhlil süzgəcindən keçirmişdir.

Yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, götürdüyümüz problem tarixi baxımdan hələ kifayət qədər tədqiq edilməmişdir. Doğrudur, T.Ş.Xəlilova özünün “XX əsrin 90-cı illərində Azərbaycanda iqtisadi islahatların tarixi”[1] adlı namizədlik dissertasiyasında Azərbaycanda iqtisadi islahatlar tarixini dərindən təhlil etmişdir. Müəllif öz tədqiqatında bazar iqtisadiyyatına keçid yolunda ölkədə keçirilən islahatların tarixi təhlilinə xüsusi diqqət yetirmişdir. Müəllif iqtisadi islahatlar içərisində neft amilinin əhəmiyyətini, onun rolu və yeri üzərində xüsusi dayanmışdır. Əsərdə tədqiqatçı Azərbaycan iqtisadiyyatının sabitləşməsində və gələcək inkişafında maliyyə-vergi islahatlarının keçirilməsinin vacib hal olduğunu, bazar iqtisadiyyatının təşkil edilməsi yolunda ölkənin tarixində özəlləşdirmənin qaçılmaz mərhələ olmasını, kənd təsərrüfatında özəlləşdirmənin formalaşdırılması prosesinin ölkənin iqtisadi dirçəlişində vacib şərtlərdən biri olmasını qeyd etmişdi.

---

[1] Халилова Т.Ш. История экономических реформ в Азербайджане 90-х годов XX века: дис. канд. ист. наук. Баку, 2003, 181с.

Beləliklə, problemin tədqiqinə həsr edilmiş elmi ədəbiyyatların təhlili bir sıra nəticələrə gəlməyə imkan verir:

1) XX əsrin 90-cı illərində və XXI əsrin ilk illərində ölkənin sosial-iqtisadi vəziyyəti, bazar münasibətlərinə keçid üçün aparılan islahatlar, regionların sosial-iqtisadi inkişafı naminə sahibkarlığın formalaşması və dövlətimizin siyasəti bu məsələlərin öyrənilməsinə tədqiqatçı marağını artırmışdır;

2) Həminmarağın nəticəsi olaraq yazılmış əsərlərin problemin öyrənilməsi istiqamətində atılmış ilk addımlar kimi əhəmiyyəti şübhəsizdir. Ancaq onu da qeyd edək ki, bu araşdırmalarda problem bütünlüklə əhatə edilməmiş, onun ayrı-ayrı məqamları və aspektlərinə toxunulsa da, məsələyə sistemli və kompleks şəkildə yanaşılmamışdır;

3) Bu baxımdan təqdim olunan dissertasiya haqqında danışılan problemin kompleks halında tarixi aspektdən araşdırılması baxımından yazılmış ilk elmi-tədqiqat işi kimi qiymətləndirilə bilər.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyada tədqiqat predmeti kimi seçilmiş mövzunun öyrənilməsi zəngin mənbəşünaslıq bazasına söykənir. Tədqiqat işi Azərbaycan və rus dillərində olan çoxsaylı mənbələrin, məlumatların tənqidi analizi əsasında yazılmışdır. Tədqiqat prosesində əsaslandığımız ilk mənbələrdən biri Azərbaycan Respublikasının Konstitusiyasıdır ki, dövlətimizin iqtisadi siyasətinin mahiyyəti, əsas istiqamətləri və prinsiplərinin ümumi şəkildə təsbit olunduğu bu qanunun müvafiq bölmələri problemin elmi-konseptual və hüquqi-normativ müstəvidə araşdırılmasına imkan vermişdir. [1] Bundan əlavə Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları da mövzunun ayrı-ayrı məsələlərinin hüquqi-normativ müstəvidə tədqiqinə yardım etmişdir. [2]

Ümummilli lider Heydər Əliyevin əsər və çıxışları, modemləşmənin məqsədləri, perspektivləri, şərtləri haqqındakı fikirləri bu sahədə böyük əhəmiyyət kəsb edir. [3] Həmçinin dissertasiyanın mənbə bazası kimi Azər-

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.

[2] Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. II kitab (1991-1998-ci illər). Bakı: Qanun, 2001, 880 s.; III kitab (1998-2001-ci illər). Bakı: Qanun, 2001,752 s.

[3] Əliyev H.Ə. Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır. Bakı: Nurlar, 2002, 112 s.; yenə onun. Müstəqilliyimiz əbədidir. I kitab (iyun, 1993- may,1994). Bakı: Azərnəşr, 1997, 606 s.; II kitab (may, 1994- dekabr,1994). Bakı: Azərnəşr, 1997, 601 s.; III kitab (dekabr, 1994- iyun, 1995). Bakı: Azərnəşr, 1997, 488 s.; IV kitab (iyun, 1995- noyabr, 1995). Bakı: Azərnəşr, 1997, 527 s.; V kitab (noyabr, 1995- mart, 1996). Bakı: Azərnəşr, 1998, 499 s.; VI kitab (6 mart, 1996- iyun, 1996). Bakı: Azərnəşr, 1998, 511 s.; VII kitab (iyun, 1996- noyabr, 1996).Bakı: Azərnəşr, 1998, 519 s.; yenə onun. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə azərbaycan xalqına müraciət. Bakı: XXI- Yeni Nəşrlər Evi, 2001, 56 s. və s.

baycan Respublikası Milli Məclisinin cari arxivindəki iqtisadi siyasət üzrə və aqrar siyasət üzrə komissiyaların material və sənədlərindən geniş istifadə edilmişdir.[1]

Tədqiqat işində 1995-2000-ci illərdə Milli Məclisdə aqrar islahatların hüquqi bazasının təşkili məqsədilə qəbul edilən "Aqrar islahatın əsasları haqqında (18 fevral 1995-ci il, N 976)", "Sovxoz və kolxozların islahatı haqqında (18 fevral 1995-ci il, N 978)", "Damazlıq işi haqqında (26 mart 1996-cı il, N 46-IQ)", "Meliorasiya və irriqasiya haqqında (5 iyun 1996-cı il, N 116-IQ)", "Torpaq islahatı haqqında (16 iyul 1996-cı il, N 155-IQ)", "Toxumçuluq haqqında (11 mart 1997-ci il, N 257-IQ)", "Torpaq icarəsi haqqında (11 dekabr 1998-ci il, N 587-IQ)", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında (22 dekabr 1998-ci il, N 593-IQ)", "Sovxozların, kolxozların və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan digər hüquqi və fiziki şəxslərin (emal müəssisələrindən başqa) vergi borclarının silinməsi haqqında (26 mart 1999-cu il, N 633-IQ)", "Kiçik sahibkarlığa dovlət köməyi haqqında (4 iyun 1999-cu il, N 673-IQ)", "Azərbaycan Respublikası Torpaq Məcəlləsinin təsdiq edilməsi haqqında (25 iyun 1999-cu il, N 695-IQ)", "Torpaqların münbitliyi haqqında (30 dekabr 1999-cu il, N 788-IQ)", "Taxıl haqqında (16 iyun 2000-ci il, N 898-IQ)", "Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında (24 oktyabr 2000-ci il, N 937-IQ)" və s. Qanunlar təhlil olunmuşdur.[2]

Araşdırılan dövrdə aqrar islahat tarixinin qanunvericilik aktları ilə uzlaşdırılaraq tədqiq olunması Azərbaycanın müasir tarix elmi üçün çox əhəmiyyətlidir. Bu baxımdan tədqiqat işinin gedişində mövzu ilə bağlı xeyli sayda arxiv sənədləri elmi dövriyyəyə cəlb edilmişdir. Xüsusilə XX əsrin 90-cı illərinin II yarısında qəbul olunmuş qanunvericilik aktlarının təhlili üçün Azərbaycan Respublikası Milli Məclisinin cari arxiv sənədlərindən geniş istifadə olunmuşdur. Araşdırma prosesində həmçinin, möv-

---

[1] ARMMA, f. 2941, s. 1, i. 312, v. 106; f.2941, s. 1, i. 390, v. 2-48; f. 2941, s. 1, i.392, v. 231-251; f. 2941, s. 1, i. 397, v. 30-49; f. 2941, s. 1, i. 470, v.169-185;f. 2941, s. 1. i. 592, v. 81-87; f. 2941, s. 1, i. 599, v.68-93; f. 2941, s. 1, i. 676, v. 90-95; f. 2941, s. 1, i. 678, v. 2-35; f. 2941, s. 1, i. 682, v. 1-360; f. 2941, s. 1, i. 810, v. 130-146; f.2941, s. 1, i. 913, v. 194-197; f. 2941, s. 1, i. 1002, v. 24-39; f. 2941, s. 1, i. 1004, v. 125-127; f. 2941, s. 1, i. 1009, v. 17-36; f. 2941, s. 1, i.1284, v. 108-123; f. 2941, s. 11, i. 1296, v. 139-150

[2] Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. II kitab (1991-1998-ci illər). Bakı: Qanun, 2001, 880 s.; Yenə orada. III kitab (1998-2001-ci illər). Bakı: Qanun, 2001, 752 s.

zuyla bağlı məsələlərə aydınlıq gətirmək üçün dövrü mətbuat materiallarından, müxtəlif statistik məcmuələrdən və müstəqil ekspert rəylərindən istifadə olunmuşdur. Dissertasiya işinin informasiya bazasını Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası İqtisadi inkişaf Nazirliyinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun tədqiqat materialları təşkil edir. Dissertasiya yazılarkən rəsmi qəzetlər olan “Xalq”, “Azərbaycan” və “Respublika” qəzetlərinin materiallarından geniş istifadə edilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1991-2013-cü illəri əhatə edir. Mövcud xronoloji çərçivə Azərbaycan Respublikasının kənd təsərrüfatında özəl sektorun formalaşması və inkişafını tarixilik prinsipi əsasında tədqiq etməyə imkan verir. Verilmiş zaman kəsiyində Azərbaycanda siyasi, iqtisadi sabitlik yarandı, Respublika dünyaya inteqrasiya olundu, regionlarda iqtisadi mühit genişləndirildi və sahibkarlığın inkişafına geniş şərait yaradıldı.

2004-cü ildə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)”[1] qəbul edildikdən sonra bu sahədə yeni mərhələ başladı. 2009-cu ildə analoji problemlə bağlı qəbul edilən yeni Dövlət Proqramı (2009-2013)[2] görülmüş böyük işlərin məntiqi davamına çevrildi.

Problemin öyrənilməsinin xronologiyası elmi cəhətdən dəqiq əsaslandırılmışdır.

**Tədqiqatın obyekti** 1991-2013-cü illərdə Azərbaycan Respublikasının kənd təsərrüfatında özəl sektorun formalaşması və inkişafı tarixinin öyrənilməsidir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi ilkin mənbələr və tarixşünaslıq bazası əsasında Azərbaycan Respublikasının kənd təsərrüfatında özəl sektorun formalaşması və inkişafı məsələsini bir problem kimi araşdırmaq, ölkə iqtisadiyyatının əsas bölmələrindən olan kənd təsərrüfatının inkişafında özəl sektorun önəmli yer tutmasını zəngin faktlar əsasında öyrənmək və sistemləşdirməkdən ibarətdir. Dissertasiya adı çəkilən problemin kompleks halında tarixi aspektdən araşdırılması yolunda ilk addım olub, əsas diqqətin aşağıdakı mühüm vəzifələrin yerinə

---

[1] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008). Bakı: Prezident kitabxanası, 2007, 204 s.

[2] Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2009, 183 s.

yetirilməsinə cəlb edilməsi ilə səciyyələnir:

- Azərbaycanda bazar iqtisadiyyatına keçid şəraitində aqrar islahatların qanunvericilik bazasının yaradılmasının təkmilləşdirilməsini tarixi aspektdə təhlil etmək;
- Müstəqil dövlət quruculuğunun ilkin mərhələsində (1991-1995-ci illər) bazar iqtisadiyyatına keçid siyasətinin qanunvericilik əsaslarını faktlarla sübuta yetirmək;
- Yeni iqtisadi sistemə keçid şəraitində dövlətin qanun və qərarlar əsasında aqrar islahatlar yolunda müəyyənləşdirdiyi istiqamətləri araşdırmaq;
- 1995-2013-cü illərdə aqrar islahatların qanunvericilik əsaslarının yaradılması və inkişaf məsələsini elmi təhlillər süzgəcindən keçirmək;
- Kənd təsərrüfatı sahəsində keçirilən islahatların ardıcıllıqla tarixi təhlilini vermək;
- MDB ölkələri arasında ilk dəfə olaraq Azərbaycan Respublikası ərazisində başlamış aqrar islahatların qısa müddətdə dinamik inkişafla əvəz olunması və əhalinin ərzaqla təminatında sabitliyə nail olunması yollarını MDB ölkələrinin aqrar təcrübəsi ilə müqayisədə araşdırmaq;
- Regionlardakı müasir durumun Ümummilli lider Heydər Əliyev siyasətinin davamı olduğunu sübuta yetirmək;
- Regionların enerji təhlükəsizliyinin təminatını, regionların iqtisadi yüksəlişini, iqtisadi inkişafın dövlətçiliyin möhkəmləndirilməsinin və xalqın maddi rifahının yaxşılaşdırılmasında kənd təsərrüfatında özəl bölmənin rolunu elmi cəhətdən araşdırmaq;
- Yeni mülkiyyət münasibətlərinin zəminində kənd təsərrüfatında sahibkarlığın təşəkkülü və inkişafını xronoloji ardıcıllıqla təhlil etmək;
- Aqrar islahatlar və regionların sürətli inkişaf strategiyasının özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla aqrar sahibkarlığı ayrı-ayrı mərhələlər üzrə izləmək, lazımi ümumiləşdirmələr aparıb, əhəmiyyətli ola biləcək elmi nəticələr çıxarmaq və inkişafa daha da xidmət edəcək təklif və tövsiyələri irəli sürmək;
- Ərzaq təhlükəsizliyi problemi sahəsində bir sıra irəliləyişlərə nail olunmasına baxmayaraq, ölkə əhalisinin yerli məhsullarla tam təminatında hələ də çətinliklərin qalması səbəblərini və problemin həlli yollarını araşdırmaq.

**Dissertasiyanın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri və metodoloji əsasını tarix elmində tətbiq olunan ümumi metodlar təşkil edir. Yuxarıda qeyd olunan vəzifələrin yerinə yetirilməsində bir sıra nəzəri

metodlardan istifadə edilmişdir. SSRİ-nin mövcud olduğu dövrdə Sovet və onun tərkib hissəsi olan Azərbaycan tarixşünaslığında bu məsələlərin izahında marksist metodologiyasından istifadə edilmişdir. Sözü gedən metodologiya hadisələrə və proseslərə birtərəfli qaydada, sinfi və partiyalılıq nöqteyi-nəzərdən yanaşdığından zamanın sınağından çıxa bilmədi. Hazırda dünyanın yeni siyasi reallıqlarına uyğun olaraq bu metodologiyanın yerini ümumi elmi metodlar tutmuşdur. Tədqiqatın nəzəri metodoloji bazasını əsasən tarixilik metodu təşkil edir. Həmin dialektik metod tarixi gerçəkliyin obyektiv təsvirini verməyə imkan yaradır. Xüsusilə, mənbələrlə işləyərkən induktiv metoddan geniş istifadə edilmişdir. Bir çox məsələlərin təhlilində isə deduktiv metoddan da geniş şəkildə bəhrələnilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə ondan ibarətdir ki, tarixşünaslıqda 1991-2013-cü illərdə Azərbaycan Respublikasının kənd təsərrüfatında özəl sektorun formalaşdığı, xüsusilə, sahibkarlığın inkişaf strategiyası məsələsi ilk dəfə müstəqil tədqiqat problemi kimi araşdırılır:

- İlk dəfə olaraq bu problemlə bağlı olan arxiv materialları, tarixçi, iqtisadçı və siyasətçilərin əsərləri elmi dövriyyəyə cəlb edilmişdir;
- Azərbaycanın kənd təsərrüfatında özəl sahibkarlığın formalaşması prosesi tarixi mərhələlərlə ətraflı təhlil edilmişdir;
- Aqrar islahatların ümumi nəticələri MDB ölkələrində aparılmış aqrar islahatların nəticələri ilə müqayisəli təhlil olunmuşdur;
- Azərbaycan Respublikasında aqrar siyasətin formalaşdırılması ilə əlaqədar olaraq qəbul edilmiş qanunların yerlərdə tətbiqi və nəticələri müəyyənləşdirilmiş, qanunvericilikdəki nöqsan və boşluqlar, aqrar sahədə görülən bəzi tədbirlərin ləngidilməsi səbəbləri araşdırılmışdır;
- Kənd təsərrüfatında islahatlar strategiyasının reallaşması ilə ölkə əhalisinin müxtəlif təbəqələrinin real bazar şəraitinə uyğunlaşması və sahibkarlar sinfinin yaranması arasındakı əlaqələr tədqiq olunmuşdur;
- 1991-2013-cü illərdə ölkədə kənd təsərrüfatının əvvəl tənəzzül, sonra durğunluq, daha sonra isə dinamik inkişaf mərhələsi xronoloji ardıcıllıqla tədqiq edilmiş, bir sıra faktlar ilk dəfə elmi dövriyyəyə gətirilmişdir;
- Aqrar islahatların regionların sosial-iqtisadi inkişafı ilə sıx bağlılığı, regionların sürətli inkişafı strategiyası, iqtisadi cəhətdən güclü regionların yaradılması sahəsində görülən işlər və Azərbaycan dövlətinin bu sahədə qayğısı məsələlərinə spesifik tarixi yanaşma müəyyən edilmiş və Azərbaycan tarixşünaslığına daxil edilmişdir;
- Azərbaycanda yeni-regional inkişaf strategiyasının işlənib hazırlan-

ması ideyası əsaslandırılmış və onun təkmilləşdirilməsi istiqaməti müəyyən edilmişdir;

- Azərbaycanda regional sosial-iqtisadi inkişafın proqramlarla idarə edilməsi təcrübəsi ilk dəfə öyrənilmiş və ümumdövlət mənafeyi baxımından qiymətləndirilmişdir;
- Tədqiq olunan problemlə bağlı bir sıra yeni mənbələr də araşdırılmış, çoxsaylı monoqrafiya, jurnal və qəzetlərdəki materiallar ilk dəfə elmi dövriyyəyə gətirilmişdir.

**Tədqiqatın elmi dəyəri.** Tədqiqatın elmi dəyəri onun elmi yeniliyinə əsaslanır. Tədqiqatın xronoloji çərçivəsini təşkil edən 1991-2013-cü illər Azərbaycanın müstəqillik əldə etdiyi, çətin dövlət quruculuğu proseslərinin həyata keçirildiyi, coxsaylı daxili və xarici yönümlü problemlərlə üzləşdiyi dövrdür. Belə mürəkkəb bir dövrdə formalaşmış Azərbaycanın bazar iqtisadiyyatı və regionların sürətli inkişafı strategiyasının tarixi təhlil əsasında tədqiqi xüsusi elmi əhəmiyyət kəsb edir. Problemin hər tərəfli araşdırılmasının elmi dəyəri eyni zamanda Azərbaycanın müasir tarixinin tərkib hissəsi və mühüm mərhələlərindən birinin tədqiqi ilə bağlıdır.

Sahibkarlığın inkişafı ilə bağlı hər bir regionda görülən tədbirlər, problemin hərtərəfli araşdırılması həm də ayrı-ayrılıqda bu tədqiqat işinə ümumi istiqamət verə bilər.

**Dissertasiyanın praktik əhəmiyyəti.** Dissertasiyanın praktik əhəmiyyətinə gəlincə, burada gətirilmiş zəngin faktiki materiallar, elmi nəticələr və ümumiləşdirmələr Azərbaycanın müasir tarixinə dair əsərlər yazılarkən istifadə edilə bilər. Dissertasiyanın materialları ali məktəblər üçün “Azərbaycan tarixi” və “İqtisadi nəzəriyyə” fənlərinə dair dərsliklərə daxil edilə bilər və ondan faydalanmaq olar. Tədqiq olunan problemin ayrı-ayrı aspektləri ilə bağlı dissertasiyada əldə edilən elmi ümumiləşdirmələr də praktik əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən dissertasiya ali məktəblər üçün tarix və iqtisadi nəzəriyyəyə dair mühazirəyə və ixtisas kurslarına hazırlaşmaq üçün də yararlı ola bilər. Gələcəkdə həmçinin bazar iqtisadiyyatının tarixinə dair əsərlər yazılarkən də bu tədqiqat köməyə gələ bilər. Azərbaycanın modernləşdirilməsi tarixini öyrənmək istəyən hər bir oxucu üçün də bu maraqlıdır. Ümumiyyətlə, tarix və iqtisadiyyatla maraqlanan hər bir vətəndaş bu tədqiqat işindən səmərə əldə edə bilər. Dissertasiya işi Azərbaycanda regional inkişaf sahəsində istifadə edilmək üçün nəzərdə tutulmuş yeni və səmərəli metodik materialları da özündə əks etdirir. Verilmiş təkliflər proqram modelli regional sosial-iqtisadi inkişaf proqramlarının hazırlanmasında, habelə regional iqtisadiyyatın dövlət tənzimlənməsində istifadə edilmək üçün də yararlıdır.

Dissertasiyada verilən təklif və tövsiyələrdən Azərbaycanın inzibati regionları üzrə sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi tarixinin işlənib hazırlanmasında da istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işinin əsas məzmunu müəllifin ölkəmizdə, o cümlədən xaricdə nəşr olunmuş 11 elmi məqalə və konfrans materiallarında öz əksini tapıb. Bundan əlavə müəllif (doktorant) dissertasiyanın ayrı-ayrı məsələlərinə həsr edilmiş məruzələrlə elmi konfranslarda da çıxış etmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, üç fəsil, altı yarımfəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, elmi əhəmiyyəti əsaslandırılmış, tədqiqatın xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, Girişdə tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın birinci fəsli **"XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid və aqrar islahatların zəruriliyi"** adlanır. Fəsil iki yarımfəslə bölünmüşdür. "**Müstəqilliyin ilk illərində Respublika iqtisadiyyatında vəziyyət və aqrar islahatların qanunvericilik bazasının yaradılması zəruriliyi"** adlanan birinci yarımfəsildə müstəqilliyin ilk üç ilində ölkə iqtisadiyyatındakı ümumi vəziyyət gözdən keçirilmiş, Respublika iqtisadiyyatının və əhalinin sosial vəziyyətinin gücləndirilməsinin vacibliyi göstərilmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra aqrar islahatların qanunvericilik bazasının yaradılması cari həyat üçün daha ciddi maraq doğurmağa başladı. Bununla yanaşı SSRİ-nin süqutundan sonra iqtisadi əlaqələrin pozulması üzündən iqtisadiyyatımızın iflic vəziyyətinə düşməsi, səriştəsiz rəhbərliyin olması səbəbindən vəziyyətin dəyişməsinə düzgün siyasi qiymət verilməməsi bu sahədə ciddi addımlar atılmasını ləngidirdi. Ölkədə geniş miqyaslı iqtisadi islahatlara 1993-cü ilin iyunundan etibarən böyük siyasətçi, dövlət xadimi, idarəçilik qabiliyyətli, hadisələri qabaqlamaq bacarığı ilə fərqlənən dahi şəxsiyyət Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra başlandı.

Dünya şöhrətli siyasətçi Heydər Əliyev iqtisadi islahatlar üçün iq-

tisadi sabitliyin yaranmasını vacib hesab edirdi. İqtisadi sabitliyə nail olmaq üçün isə ilk əvvəl ölkədəki hərc-mərcliyə son qoymaq, atəşkəsə nail olmaq, nəticədə siyasi sabitliyi təmin etmək zəruri idi. Heydər Əliyev dühası ardıcıl olaraq siyasi sabitliyin təmin edilməsi yolundakı ciddi maneələri aradan qaldırdı. Onun 1994-cü ilin iyunun 15-də imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında"[1] fərmanı müəyyən bir mərhələdə, uzun bir müddətdə iqtisadiyyatımızın dirçəldilməsinə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün təminat yaradılmasına imkan vermiş oldu. "Qeyd etmək lazımdır ki, aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır"[2].

Azərbaycanın iqtisadi inkişafında Heydər Əliyev dövrünü üç tarixi mərhələyə bölmək olar: 1)1993-1995-ci illər; 2)1995-1998-ci illər və 3)1998-2003-cü illər.

Birinci mərhələdə Ümummilli lider Heydər Əliyevin başlıca fəaliyyət sferası nəyin bahasına olursa olsun Azərbaycan dövlətçiliyini xilas etmək, mərkəzləşdirilmiş unitar dövləti formalaşdırmaq, ölkə iqtisadiyyatının dirçəldilməsi və onun sabit artım templərini əldə etmək imkanlarının yaradılması idi.

İkinci mərhələdə Ümummilli lider sırf iqtisadi anlamda üç əsas problemin paralel sürətdə həllini ön plana çıxarmışdı. Birinci milli iqtisadiyyatın formalaşdırılması, ikinci ölkə iqtisadiyyatının bazar prinsipləri əsasında yenidən qurulması, Azərbaycan Respublikasının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının təmin edilməsi. Bu mərhələ, demokratik islahatlar, sosial iqtisadi islahatlar və dövlət quruculuğu mərhələsi oldu. Üçüncü mərhələdə isə iqtisadiyyatın artım templə tərəqqisinə nail olmaq nəzərdə tutulurdu.

Bu bir həqiqətdir ki, Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə, dünyanın sərbəst iqtisadiyyatı yolu getməsini təmin etmək sahəsində, yeni iqtisadi strukturlar, mülkiyyət formaları yeni münasibətlər yaradılması sahəsində çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdi. Onların həyata keçirilməsi nəticəsi olaraq iqtisadiyyatda özəl sektorun inkişaf etdirilməsi üçün baza yaradılmışdır. Azərbaycanda

[1] Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, s. 295

[2] Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. Bakı: XXI- Yeni Nəşrlər Evi, 2001, s.47

qiymətlərin sərbəstləşdirilməsi və bütün qiymətlərin liberallaşdırılması nəticəsində Azərbaycanda özəl sektor geniş fəaliyyətə başlamışdır.

Ulu öndər Heydər Əliyevin sədrliyi ilə təkcə 1994-cü ildə aqrar sahənin inkişaf etdirilməsi məsələsinə dair 8 müşavirə və 1 beynəlxalq konfrans keçirilmişdir[1].

Heydər Əliyev 23 dekabr 1994-cü ildə kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş sonuncu respublika müşavirəsində aqrar islahatların vacibliyini bir daha vurğulayaraq bildirdi ki, "...aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü məsələdir"[2].

**"Respublikanın kənd təsərrüfatında özəl sektorun qanunvericilik əsaslarının formalaşdırılması"** adlanan ikinci yarımfəsildə aqrar islahatları uğurla həyata keçirmək üçün onun hüquqi bazasının yaradılmasından və bunun əhəmiyyətindən danışılır. Ölkə ərazisində aqrar islahatları müvəffəqiyyətlə həyata keçirmək üçün onun qanunvericilik bazasını müəyyən etmək və onu mərhələ-mərhələ həyata keçirmək lazım idi. Ümummilli lider Heydər Əliyev iqtisadiyyatın ahəngdar inkişafının təmin edilməsində və iqtisadi idarəetmənin təkmilləşdirilməsində qanunvericilik mexanizminin həlledici roluna xüsusi əhəmiyyət verirdi. O, iqtisadi tənəzzülü aradan qaldırmaq üçün qarşıya birinci dərəcəli vəzifə kimi maliyyə böhranını aradan qaldırmağı qoydu. 1994-cü ilin mayında maliyyə sistemini nizama salmaq üçün qəti tədbirlər görməyə başladı.

1995-ci ildən başlayaraq dövlət tərəfindən Respublikada aqrar islahatları həyata keçirmək üçün 40-dan artıq hüquqi-normativ sənədlər hazırlanmış, qanunlar qəbul edilmişdir ki, onlardan "Torpaq islahatı haqqında" qanun kənddə azad sahibkarlığın yaranmasının əsasını təşkil etmişdir. Torpaqlar dövlət, bələdiyyə və özəl sektorlara bölünərək əsas hissəsi (kənd təsərrüfatına yararlı sahələrin 1,4 min hektarı) kənd təsərrüfatı məhsullarının istehsalı üçün kəndli-fermer təsərrüfatlarına verilmişdir[3].

Dissertasiya işinin ikinci fəsli **"XX əsrin 90-cı illərinin ikinci**

---

[1] Əhmədov G. Heydər Əliyevin aqrar strategiyası. "Xalq qəzeti", Bakı, 2007, 11 dekabr

[2] Əliyev İ.N. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərnəşr, 1997, s. 142

[3] Əliyev B.H., Əliyev İ.N. Azərbaycanda kənd təsərrüfatının bəzi problemləri və onların həlli yolları. Bakı: Ziya-Nurlan, 2004, s. 7; ARMMA, f. 2941, s. 1, i. 392, v. 231-251

**yarısında Respublikanın kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətləri"** adlanır. Fəsil iki yarımfəsildən ibarətdir. **"Torpaq islahatı və kənd təsərrüfatının inkişaf mərhələləri"** adlanan birinci yarımfəsildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış "Torpaq islahatı haqqında" qanunun qəbulu, onun bölgələrdə icrası və bunun kənd təsərrüfatının inkişafında yeni mərhələ olduğu qeyd olunmuşdur. Müstəqilliyin ilk illərində bazar iqtisadiyyatının qanunvericilik və sivil idarəetmə üzrə normativ hüquqi sənədləri yox idi. Bazar iqtisadiyyatına keçid əvvəlki sistemin tədricən ləğv edilməsini və məhələlər üzrə yeni iqtisadi münasibətlərin qurulmasını, prosesin həmin ardıcıllıqla gedişi isə düzgün iqtisadi islahatların aparılmasını tələb edirdi. Ölkə rəhbərinin aqrar bölməni böhrandan çıxarmaq məqsədi ilə verdiyi göstərişləri, tövsiyələri, bilavasitə yerinə yetirdiyi konkret tədbirləri, zənnimizcə, aşağıdakı ardıcıllıqla sistemləşdirmək məqsədəuyğun olardı:

- Aqrar bölməni bürüyən böhranın səbəblərinin araşdırılması;
- Böhrandan çıxış yollarını göstərən aqrar siyasət konsepsiyasının dövlət səviyyəsində hazırlanması;
- Hərtərəfli iqtisadi islahatlar aparmaq yolu ilə aqrar bölməni böhrandan çıxarmağın strateji istiqamətlərinin əsas xəttinin müəyyənləşdirilməsi;
- Formalaşmaqda olan aqrar siyasətin normativ-hüquqi bazasının yaradılması üzrə ölkəmizdə, xarici dövlətlərdə aqrar siyasət istiqamətində aparılan təcrübələrin ümumiləşdirilməsi əsasında yerli şəraitin xüsusiyyətlərini nəzərə alan normativ-hüquqi sənədlər toplusunun hazırlanması işləri ilə paralel milli qanunların qəbul edilməsini gözləmədən Prezidentin bilavasitə göstərişi ilə heyvandarlıqda özəlləşdirməyə başlanılması;
- Aqrar siyasətin qayəsini təşkil edən aqrar islahatların aparılmasının normativ-hüquqi bazasının yaradılması;
- Qanunvericilik sənədlərinə müvafiq olaraq, aqrar islahatları aparan dövlət qurumlarının təşkil edilməsi;
- Aqrar islahatların qanunvericilik sənədlərində nəzərdə tutulan müddəaların həyata keçirilməsini təmin edən dövlət proqramının tətbiqi və təsdiqi.

Aqrar iqtisadiyyatın böhranlı durumunu şərtləndirən arqumentlərdən biri də onun texnoloji imkanlarının kifayət qədər aşağı olması ilə bağlı idi. Belə ki, aqrar iqtisadiyyatda istifadə edilən maşın və avadanlıqların, ən yaxşı halda fiziki köhnəlməyə məruz qalması istehsalda fondverimliyin aşağı düşməsinə, emal sənayesi məhsullarının keyfiyyətinin dünya standart-

larından geri qalmasına gətirib çıxarmışdır[1].

Beləliklə, Azərbaycanda 1993-cü ilin ikinci yarısından 1995-ci ilin birinci rübünə qədər keçən müddətdə dövlətin aqrar siyasətinin əsas istiqamətləri hazırlanmış və bu öz təsdiqini normativ-hüquqi aktlarda tapmışdır.

Ulu öndər Heydər Əliyev iqtisadiyyat sahəsinə aid olan qanunların mücərrəd modellər əsasında qeyri-müəyyən şərait üçün deyil, həmin qanunların müasir bazar iqtisadiyyatının tələblərinə uyğun olması ilə yanaşı, mövcud olan konkret ictimai münasibətlərin xüsusiyyətləri ilə də uzlaşmasını vacib hesab edirdi.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, bitkiçilik sahələrindən fərqli olaraq heyvandarlıq məhsullarının istehsalı əsasən zərərlə başa gəlmişdir. Buna əsas səbəb kimi heyvandarlıq məhsulları üzrə məhsuldarlıq göstəricilərinin hələ də aşağı səviyyədə olmasını göstərmək olar. Təhlil göstərir ki, hazırki şəraitdə fermer təsərrüfatının inkişaf istiqamətində baş vermiş dəyişikliklər istehsalın artımı baxımından heç də optimal sayıla bilməz. Ona görə ki, bu struktur dəyişiklikləri nəticəsində daha gəlirli sahələr olan pambıq, tütün, üzüm, yaşıl çay yarpağı kimi bitkilərin əkin sahələri və buna müvafiq olaraq onların istehsal həcmi kəskin azaldılmışdır.

Aparılan araşdırmalar bir daha sübut edir ki, məhz Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra aqrar sahədə əsaslı islahatlar keçirilmiş, iqtisadiyyatın bu sahəsinin bazar münasibətlərinə uyğun inkişafı təmin edilmişdir. Aqrar sahədə XX əsrin 90-cı illərin birinci yarısında hökm sürən tənəzzül və böhranın qarşısı alınmış, onun dinamik inkişafına nail olunmuşdu.

İkinci fəslin ikinci yarımfəsli **“Özəl kənd təsərrüfatı strukturlarının yaradılması, onun ölkənin iqtisadi inkişafına təsiri”**adlanır. Bu yarımfəsildə kəndli (fermer) təsərrüfatlarının yaradılması və bunun ölkənin iqtisadi inkişafında rolu qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyev siyasətinin nəticəsi idi ki, 1995-ci ildən etibarən ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sektorda radikal islahatlar kursuna start verildi. Azərbaycanın iqtisadiyyatı 1990-cı ilin əvvəllərində böhran vəziyyətində olduğu halda, 1995-ci ildən iqtisadiyyatın bütün sahələrində inkişaf müşahidə olunmuşdur. Bunların əsas səbəbləri iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır[2]. Məhz belə tədbirlərin nəticəsidir ki, kənd təsər-

---

[1] Salahov S.V. Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi problemləri: İqt. elm. dok. diss., Bakı,2005, s. 239-240

[2] Əliyev H.Ə. Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır. Bakı: Nurlar, 2002, s. 6

rüfatının inkişafı ilə bağlı respublikamızda mütərəqqi inkişaf meyillərinə nail olunmuşdur.

Dissertasiyanın üçüncü fəsli "**XXI əsrin əvvəllərində Respublikada aqrar sahənin inkişafına dövlət yardımının stimullaşdırılması**" adlanır. Fəsil iki yarımfəslə bölünür. **"Regionların sosial-iqtisadi inkişafının I və II Dövlət Proqramlarının kənd təsərrüfatında sahibkarlığın inkişafıın sürətləndirilməsinə təsiri"** adlanan birinci yarımfəsildə ölkə iqtisadiyyatının dinamik inkişafında və uğurların qazanılmasında regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı Dövlət Proqramlarının mühüm rol oynamasından danışılır. Regional Dövlət Proqramlarının əsas mahiyyəti ondan ibarət idi ki, bütün sahələr orada əhatə edilirdi. Bu proqramlar əhalidən gələn təkliflər hesabına yaranmış və konkret xarakter daşıyırdı. 2004-cü ildən aparılan məqsədyönlü və kompleks dövlət siyasətinin nəticəsində Cənubi Qafqazın ümumi iqtisadiyyatının dörddə üçü respublikamızın payına düşmüşdü.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrası nəticəsində iqtisadiyyatın bütün sahələrində dinamik artım müşahidə edilmiş, o cümlədən kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz artmışdır[1]

Proqramda 46 Respublika miqyaslı tədbir-inkişaf istiqaməti, dağlıq və dağətəyi rayonların inkişafına yönəldilməsi və iqtisadi rayonların kompleks sosial-iqtisadi inkişafını təmin etmək üçün 668 region miqyaslı tədbir həyata keçirmək nəzərdə tutulmuşdu. Proqramda əsasən zəif olan ağır sənaye sahələrinin (kimya, maşınqayırma, qara və əlvan metallurgiya, neft-kimya, neft-qaz hasilatı, energetika) işə salınması, ixtisaslaşmış kənd təsərrüfatı və onların xammalını emal edən sahələrin (baramaçılıq-ipəkçilik, çayçılıq-çay emalı, pambıqçılıq-pambıq təmizləmə, tütün-tütün emalı) inkişaf etdirilməsi nəzərdə tutulmuşdu.

Proqramda kənd təsərrüfatında məhsul istehsalının sürətli inkişafı və ÜDM istehsalının 62,5%, hər il isə orta hesabla 10,5% artacağı gözlənilirdi. Kənd təsərrüfatı işçilərinə kömək məqsədilə iqtisadi rayonlarda servis mərkəzləri, damazlıq heyvan və toxumçuluq bazalarının yaradılması, idman komplekslərin tikintisi, turizmin, sanatoriya-kurort təsərrüfatının imkan olan bütün iqtisadi rayonlarda (Quba-Xaçmaz, Lənkəran-Astara, Gəncə-Qazax, Abşeron iqtisadi rayonu və s.) kütləvi halda inkişafı, əhaliyə xidmət edən infrastruktur sahələrinin (elektrik enerjisi, qaz və istilik təchizat sisteminin yenidən qurulması və inkişafı, magistral yolların və yaşayış

---

[1] "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident fərmanının mətni. "Xalq qəzeti", Bakı, 2009, 16 aprel

məntəqələrinin əsaslı təmiri, yeni yolların çəkilməsi, kanalizasiya şəbəkəsinin yenidən qurulması və inkişafı və s.) kompleks inkişafı proqnozlaşdırılmışdı. Bu vəzifələrin yerinə yetirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Mənim tərəfimdən bu sahəyə aid imzalanmış fərmanlar icra olunacaq, Azərbaycanda regional proqramlar həyata keçiriləcək, iqtisadiyyatımızın gələcək inkişafı təmin ediləcəkdir. Əlbəttə, bütün bunlara nail olmaq üçün, ilk növbədə, sahibkarlara lazımi şərait yaradılsın. Əgər biz qarşımızda böyük vəzifələr qoyuruqsa, yoxsulluqla mübarizə aparmaq, yeni iş yerlərinin açılmasına nail olmaq istəyiriksə, mütləq və mütləq dövlətlə özəl sektor çiyin-çiyinə işləməli, fəaliyyət göstərməli, bir-birinə kömək etməlidir, bir-birinə zərbələr vurmamalıdır".

Üçüncü fəslin ikinci yarımfəsli **"XXI əsrin əvvəllərində aqrar sahədə sahibkar marağının qorunmasında dövlətin rolu"** adlanır. Yarımfəsildə ölkə rəhbərliyi tərəfindən sahibkarlara göstərilmiş diqqət və qayğıdan, onlar üçün yaradılmış səmərəli şəraitdən və bunun aqrar sektorun inkişafında müsbət meyillərin yaranmasına təsirindən danışılır.

Respublikamızın kənd təsərrüfatında baş verən radikal dəyişikliklər, o cümlədən sosialist təsərrüfatçılıq sisteminin dağılması və yeni istehsal münasibətlərinə keçid şəraitində başlanan dəyişikliklər, bütövlükdə aqrar sahibkarlığın yenidən formalaşmasına gətirib çıxardı. Aqrar sahibkarlığın inkişafında baş verən bu dəyişikliklər bütövlükdə yeni sosial- iqtisadi sistemin formalaşmasına gətirib çıxarsa da, həmin sistemin tələblərinə uyğun yeni infrasturuktur sistemi formalaşmamışdır. Məhz bütün bunlar da son nəticədə, aqrar sahədə böhran yaranmasına, formalaşmaqda olan milli bazarın istehsal və istehlakında mövcud vəziyyətin kəskinləşməsinə gətirib çıxarmış və ölkədə ərzaq böhranı yaranmışdır. Məhz bu vəziyyətin aradan qaldırılması üçün, aqrar sahədə sahibkarlığın inkişafına dövlətin marağı daha da artırılmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

## Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:


1. Ümummilli lider Heydər Əliyevin aqrar islahatları və kənd təsərrüfatında özəl sektorun formalaşması /ARTN, AMİU. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları, I c., Bakı, 2013, s. 194-196.

2. İlham Əliyev və Azərbaycan Respublikası regionlarının sosial –iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər) aqrar bölmənin inkişafı tarixindən / ARTN, ADU. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları, I c., Bakı, 2013, s.377-380.
3. Heydər Əliyev və Azərbaycan Respublikasında aqrar sahənin inkişafı tarixindən / AMEA, ARTN, BSU. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq Elmi Konfransın materialları. 05-07 may 2014, Bakı, Azərbaycan, s.622-625.
4. Из истории развития предпринимательства в аграрном секторе в конце XX века- в начале XXI века //Українська Академїя Наук. Гілея. Випуск 85 (№ 6). Київ, 2014, с. 48-51.
5. Torpaq sahibkarlığının reallaşdırılması Heydər Əliyev siyasətinin tarixi nailiyyətidir // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2014, № 4, s. 244-247.
6. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin aparıcı istiqaməti torpaq sahibkarlığıdır // Pedaqoji Universitet Xəbərləri. Bakı, 2014, № 3, s.140-144.
7. XX əsrin əvvəllərində Azərbaycanda fermer təsərrüfatlarının sosial-iqtisadi cəhətdən möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər // Sivilizasiya. Elmi-nəzəri jurnal. Bakı, 2014, №8, s. 163-168.
8. XX əsrin 90-cı illərin ikinci yarısında Azərbaycan Respublikasında aqrar sahibkarlıq və onun inkişafı problemləri // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2014, №2, s. 228-232.
9. 90-cı illərin ikinci yarısında Azərbaycan kəndində sahibkarlığa keçid və onun özünəməxsuz xüsusiyyətləri // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2014, №3, s. 181-185.
10. Azərbaycan Respublikasında I və II Dövlət Proqramlarının kənd təsərrüfatında özəl sektorun inkişafının sürətləndirilməsinə təsiri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2014, №4, s. 136-142.
11. Ümummilli lider Heydər Əliyevin aqrar islahatları Qafqazın müasir mərhələdə sosial-iqtisadi inkişafını şərtləndirən amillərdəndir / “Qafqaz tarixinin aktual məsələləri” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. 15-16 oktyabr 2015-ci il. Gəncə, GDU, 2015, s.285-289.

**А. Ю. Топчиев**

## Из истории становления и развития частного сектора в сельском хозяйстве Азербайджанской Республики (1991-2013)

### Резюме

Во введении этой диссертации подтверждена актуальность и научная значимость предмета, определены хронологические рамки, изучен уровень и источник проблемы, определены цели и задачи исследования. Также продемонстрирована методологическая основа, научная новизна и практическое значение исследования.

Эта диссертация состоит из двух полу глав. Вопросы экономики государства, законодательная основа аграрных реформ и необходимость создания законодательной базы для формирования частного сектора в Азербайджане впервые годы независимости исследуются в первой главе под заголовком **«Переход к рыночной экономике и необходимость аграрных реформ в Азербайджанской Республике в начале 90-х годов XX века ».**

Вторая глава диссертации под названием **«Направления развития предпринимательской деятельности в сельском хозяйстве республики во второй половине 90-х годов XX века»** состоит из 2 полу глав. В этой главе рассматриваются этапы земельной реформы и развития сельского хозяйства, а также вопросы создания частных фермерских структур в течение указанного периода.

Третья глава диссертации называется **«Стимулирование государственной помощи развитию аграрного сектора в республике в начале XXI века».** Эта глава также состоит из двух полу глав. Влияние I и II государственной программы на социально-экономическое развитие регионов и на ускорение развития предпринимательства в сельском хозяйстве, а затем роль государства в защите предпринимательской заинтересованности в аграрном секторе в современную эпоху рассматриваются в этой главе. Известно, что на основе государственных программ, экономика страны достигла динамичного развития, и успехи были достигнуты в этом направлении. Исследование завершено, составлены сводки, и полученные результаты проанализированы в разделе **«Заключение»** диссертации.

**A.Y. Topchuyev**

## From the History of the Formation and Development of the Private Sector in Agriculture of the Azerbaijan Republic (1991-2013)

### Summary

The relevance and scientific significance of the subject have been substantiated, chronological framework has been identified, level and source of the problem are studied, goals and objectives of the research have been determined in the introduction of this dissertation. The methodological basis, scientific novelty and practical significance of the research have also been demonstrated.

This dissertation consists of two semi-chapters. The issues of the state's economy, legislative basis of agrarian reforms and necessity of establishing legislative basis for the formation of the private sector in Azerbaijan in the early years of independence are investigated in the first chapter under the title of **"Transition to the Market Economy and Necessity of Agrarian Reforms in the Republic of Azerbaijan in the early 90s of the Twentieth Century"**.

The second chapter of the dissertation titled **"Development Directions of Entrepreneurial Activity in Agriculture of the Republic in the Second Half of the 90s of the Twentieth Century"** consists of 2 semi-chapters. The land reform and agricultural development stages, as well as issues of establishing private farming structures during the specified period are explored in this chapter.

The third chapter of the dissertation is named as **"The State Aid Stimulation to the Development of Agrarian Sector in the Republic at the Beginning of XXI Century".** This chapter also consists of two semi-chapters. The impact of the I and II State Program on the socio-economic development of the regions on the acceleration of entrepreneurship development in agriculture, and then the role of the state in the protection of entrepreneurial interest in the agrarian sector in modern times are investigated in this chapter. It is known that on the basis of state programs the country's economy has achieved dynamic development; and success has been achieved in this direction. The research was completed, summaries have been made and obtained results were analyzed in the **"Conclusion"** part of the dissertation.

Kağız formatı 60x84, 1/16

Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**АЗЕР ЮСИФ оглы ТОПЧУЕВ**

# ИЗ ИСТОРИИ СТАНОВЛЕНИЯ И РАЗВИТИЯ ЧАСТНОГО СЕКТОРА В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2013)

**Специальность: 5503.02 – «Отечественная история»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2017**